**3 May Beynəlxalq Söz və Mətbuat Azadlığı Günüdür**

# Azərbaycan jurnalistikası demokratik media prinsiplərinə sadiqdir

**BMT Baş Məclisinin qərarı ilə 1993-cü ildən hər il mayın 3-ü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü kimi beynəlxalq aləmdə geniş qeyd edilir. Azərbycan Respublikasının dövlət müstəqilliyinin ücüncü ilinə təsadüf edən bu əlamətdar tarix 26 ildir ki, ölkəmizdə də demokratik dəyərlərə sadiqliyi ifadə edir, söz azadlığı bayramına çevrilir.**



Hər il mayın 3-də ölkəmizdə keçirilən media toplantılarında mətbuat azadlığının təmin edilməsi, demokratik KİV-in inkişafı ilə bağlı gerçəkləşdirilmiş tədbirlərə, qarşıda duran növbəti vəzifələrə nəzər salınır, söz və mətbuat azadlığının əsas prinsipləri, inkişaf perspektivləri müzakirə edilir, Azərbaycan jurnalistlərinin azad sözün maneəsiz yayılmasına sadiqliyi ifadə olunur. Bu münasibətlə bu gün Bakıda media ictimaiyyətinin, nüfuzlu ziyalıların və xarici qonaqların iştirakı ilə konfrans təşkil olunmuşdur.

**Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov 3 May Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü münasibətilə qəzetimizə açıqlamasında bildirdi:**

– Söz və mətbuat azadlığı bir çox hallarda cəmiyyətdə demokratiyanın meyarı, ölçüsü rolunu oynayır. Söz azadlığının olmadığı, mətbuatın senzuraya məruz qaldığı cəmiyyətdə insan hüquqları da tez-tez pozulur. Məhz bu səbəbdən bir çox mötəbər beynəlxalq qurumlar və demokratiyanın inkişafına xidmət edən təsisatlar müxtəlif ölkələrdə söz və mətbuat azadlığını daim diqqət mərkəzində saxlayırlar. Bu mənada hər il dünyada geniş qeyd edilən ümumdünya söz və mətbuat azadlığı gününün özünəməxsus tarixi var.

İki dünya müharibəsinin və ondan heç də geri qalmayan "soyuq müharibə"nin şahidi olmuş XX əsrin sonuncu onilliyində bu əsrin ən önəmli bəşəri nailiyyətlərindən sayılan söz və mətbuat azadlığının qorunması, müstəqil və plüralist informasiya vasitələrinin daha yüksək səviyyədə inkişafı ilə bağlı mötəbər təminat yaradılması zərurəti meydana çıxıb. Azad sözün şərəfinə elan olunmuş ümumdünya mətbuat azadlığı günü "soyuq müharibə" dövrünün başa çatması ilə Yer kürəsinin vahid informasiya məkanına çevrilməsinin məntiqi nəticəsi kimi ərsəyə gəlib.

XX əsrin son onilliyində dünyada yaranmış siyasi reallıqları nəzərə alan müxtəlif ölkələrin jurnalistləri 1990-cı ilin fevralında Parisdə azad media prinsiplərinin maneəsiz yayılması və bəşəri bəlalara qarşı birgə mübarizənin zəruriliyini bildiriblər. 1991-cı ildə isə Namibiyanın paytaxtı Vindhukda keçirilən jurnalistlərin beynəlxalq seminarının iştirakçıları "Vindhuk bəyannaməsi" deyilən sənədi qəbul ediblər. Bu, sonrakı proseslərə də öz təsirini göstərib. UNESCO-nun Baş Konfransı 26-cı sessiyasında 3 may 1991-ci il bəyannaməsinin ildönümünü keçirməyi və hər il may ayının 3-də dünyada mətbuat azadlığı gününün qeyd edilməsini rəsmiləşdirməyi BMT-nin Baş Məclisindən xahiş edib. BMT-nin Baş Məclisi bu təklifi nəzərə alaraq 1993-cü il dekabr ayının 20-də may ayının 3-nü Ümumdünya Mətbuat Azadlığı Günü elan edib.

3 may 1993-cü ildən BMT-yə daxil olan bütün ölkələrdə söz azadlığı prinsiplərinə sədaqət əlaməti altında qeyd edilir. Ümumdünya Mətbuat Azadlığı Gününün belə həssaslıqla qeyd edilməsi demokratik proseslərin inkişaf etdiyi, fikir və söz azadlığına önəm verildiyi ölkələrdə, eləcə də Azərbaycanda azad sözün təntənəsinə sadiqliyi ifadə edir. Amma qurumdakı dövlətlərin heç də hamısı söz və mətbuat azadlıqlarına lazımınca dəyər vermir. Bu mənada 3 may tarixi onların bəziləri üçün yalnız təqvim hadisəsidir. Azərbaycanda isə artıq 26 ildir ki, 3 may cəmiyyətin geniş qeyd etdiyi, demokratik inkişafla bağlı önəm verdiyi bir demokratiya bayramı günüdür.

Azərbaycan jurnalistikası 3 may tarixini təntənə ilə qeyd etməklə, əslində, dünya media məkanının üzvü olduğunu bir daha təsdiqləyir. Müasir dövrümüzdə Azərbaycan mediası beynəlxalq kütləvi kommunikasiya sisteminin bir parçası kimi uğurla inkişaf edir. Söz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsü rolunu oynayır. Müstəqil Azərbaycan dövləti ölkədə insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi önəm verir. Azərbaycan dövləti ötən üç onillikdə azad sözün cəmiyyət həyatında üstün yer tutması, maneəsiz yayılması üçün zəruri addımlar atmışdır.

**AMŞ sədri daha sonra dedi:**

– Müasir dövrdə mətbuat və söz azadlığı cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri, qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətdə ictimai fikri və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir. Bu mənada, dördüncü hakimiyyət hesab olunan kütləvi informasiya vasitələri dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilir.

Dünyada informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirir, Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutur. Müstəqillik illərində, xüsusən son 16 ildə ölkəmizdə söz və mətbuat azadlığının təmin olunması istiqamətində ciddi addımlar atılmış, bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilmişdir.

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan Respublikası regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq, beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir.

Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın formalaşdırılması bugünlərdə anadan olmasının 96-cı ildönümünü təntənə ilə qeyd etməyə hazırlaşdığımız ulu öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Müstəqilliyin ilk illərindən başlayaraq ölkəmizdə KİV-in inkişafında əldə olunmuş nailiyyətlər ümummilli liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində gerçəkləşmişdir.

Prezident Heydər Əliyevin "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ilə mətbuatda senzuranın ləğvindən və "Kütləvi informasiya vasitələri haqqında" Qanunun qəbulundan sonra ölkə mətbuatının inkişafında yeni dövr başlanmışdır. 2003-cü ilin martın 15-də Azərbaycan Jurnalistlərinin I Qurultayında Mətbuat Şurasının yaradılması bu sahədə pərakəndəliyin aradan qaldırılmasına müsbət təsir göstərmişdir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə rəhbəri çıxışlarının birində belə deyib: "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir. Söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir. Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".

**Əflatun Amaşov açıqlamasını bu sözlərlə bitirdi:**

– Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu gün ölkəmizin artan imkanları kütləvi informasiya vasitələrinin, o cümlədən, milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır: "Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır." Şübhəsiz, respublikamızın tarixi inkişafında əldə olunmuş yüksək səviyyə milli mediamız qarşısında da yeni vəzifələr qoyur.

Ölkə jurnalistləri obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidirlər. Hər bir mətbuat işçisi istənilən vəziyyətdə məsuliyyət hissini unutmamalıdır. Bu gün demokratik medianın hərtərəfli inkişafı naminə dövlətin yüksək diqqət və qayğı ilə əhatə olunan, cəmiyyətin böyük ümidlər bəslədiyi Azərbaycan mediası müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub-saxlanması və təbliğində mühüm rol oynamalıdır.

*Hazırladı:*
***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***